Yanvar 2017

# PwC Azerbaijan Times

## 3 saylı Buraxılış

### *Buraxılışın əsas xəbərləri:*

- **Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydalarına edilən dəyişikliklər**
- **Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydalarına edilən dəyişikliklər*

Dəyişikliklər kənd təsərrüfatı kooperativi bazarını dövlət qeydiyyatından keçmiş hüquqi şəxs tərəfindən idarə edilən kənd təsərrüfatı məhsulları bazarı kimi müəyyənləşdirir.

Ticarət yerləri kənd təsərrüfatı kooperativlərinə bazar mülkiyyətçisi ilə kənd təsərrüfatı kooperativi arasında bağlanan müqavilə əsasında verilir. Kənd təsərrüfatı kooperativi belə müqavilə bağlamaq üçün öz ərizəsini bazar mülkiyyətçisinə təqdim etməlidir. Bazar mülkiyyətçisi ərizəyə 10 (on) iş günü ərzində baxır və qərar (razılıq və ya əsaslandırılmış imtina) qəbul edir.

Kənd təsərrüfatı kooperativləri satış şəbəkələrinin (fermer mağazaları, yaşıl marketlər, kənd təsərrüfatı kooperativi bazarları, topdansatış mərkəzləri) təşkili üçün torpaq sahəsinin istifadəyə və icarəyə verilməsi ilə bağlı yerli icra hakimiyyəti orqanına və ya bələdiyyə orqanına müraciət edirlər. Daha sonra, yerli icra hakimiyyəti orqanları və ya bələdiyyə orqanları ərazi planlaşdırılması sənədləri, o cümlədən nəqliyyat və mühəndis-kommunikasiya təminatı infrastrukturunun imkanları nəzərə alınmaqla, 1 (bir) ay müddətində müraciətə dair qərar (razılıq və ya əsaslandırılmış imtina) qəbul edirlər.

Kənd təsərrüfatı kooperativləri istifadəyə və ya icarəyə götürmək istədikləri bina və ya qeyri-yaşayış sahəsi ilə bağlı dövlət əmlakının sərəncamçısına – Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə - və ya bələdiyyə orqanlarına müraciət edirlər. Əmlak Məsələləri üzrə Dövlət Komitəsi müraciətə 20 (iyirmi) gün ərzində baxır və bu müraciətlə bağlı qərar qəbul edir.

Bələdiyyə orqanı mülkiyyətində olan obyektlərin istifadəyə və ya icarəyə verilməsi məsələsinə 20 (iyirmi) gün müddətində baxır və rəsmi cavab verir.

Kənd təsərrüfatı kooperativləri satış şəbəkələrində iş rejimini, satılacaq məhsulların növünü və yerlərini müəyyənləşdirməli, satıcıları ticarət yerləri, ölçmə vasitələri ilə təmin etməli və ərazidə digər xidmətlərin

(ərazinin təmizlənməsi, baytarlıq-fitosanitar və sanitar-epidemioloji nəzarət tədbirlərinin görülməsi və s.) göstərilməsini təşkil etməlidirlər.

***Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları***

Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə həyata keçirilir.

Yeni qaydalara əsasən:

- akvakultura təsərrüfatlarına məxsus torpaqlar aid olduqları kateqoriyada saxlanılmalıdır;

- meşə fondu torpaqları və bu kateqoriyadan olan digər torpaqların özgəninkiləşdirilməsinə gətirə bilən alqı-satqı, girov qoyulma və digər əməliyyatların yerinə yetirilməsi, habelə başqa məqsədlər üçün istifadəsi ilə nəticələnən əməliyyatlar və bir kateqoriyadan digərinə keçirilməsinə yol verilmir.

- kənd təsərrüfatı yerləri xüsusi olaraq qorunur və onların qeyri-kənd təsərrüfatı məqsədi ilə digər kateqoriyalara keçirilməsinə yalnız müstəsna hallarda yol verilir.

Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsinin əsasları aşağıdakılardan ibarətdir:

• dəniz limanının, dəmir və avtomobil yollarının tikintisi;

• dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi məqsədi ilə sərhədboyu zolağın yaradılması;

• sənaye obyektlərinin, zonalarının (məhəllələrinin və parklarının) yaradılması;

• ehtiyat fondu torpaqlarından istifadənin zəruriliyi;

• müasir texnologiyaların tətbiqi ilə aqroparkların, fermer və aqraryönlü digər təsərrüfatların yaradılması məqsədi ilə əkin dövriyyəsinə əlavə torpaqların cəlb edilməsi;

• qoruyucu meşə zolaqlarının və yaşıllıq zonalarının salınması məqsədi ilə meşə fondunun tərkibinə əlavə torpaqların verilməsi;

• xüsusi mühafizə olunan təbiət ərazilərinin (o cümlədən, milli parkların, dövlət təbiət qoruqlarının, yasıllıqların və s.) tərkibinə əlavə torpaqların verilməsi;

• magistral mühəndis-kommunikasiya təminatı sistemlərinin, meliorasiya və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğu-ların tikintisi;

• ekzogen geoloji proseslərə məruz qalmış yaşayış məntəqələrinin torpaqlarının əvəzləşdirilməsi;

• yeni yaşayış məhəllələrinin (məntəqələrinin) salınması və ya mövcud yaşayış məntəqələrinin inkişaf etdirilməsi (genişləndirilməsi) məqsədi ilə ərazi planlaşdırılması sənədlərinə uyğun olaraq əlavə torpaq sahələrinin ayrılması;

• tarix-mədəniyyət, təbii qoruq və sağlamlaşdırma yerlərinin yaradılması, əhalinin istirahətinin təşkili, turizmin inkişafı, idman və digər sosial obyektlərin tikintisi;

• xüsusi mülkiyyətdə olan torpaq sahələrindən iqtisadi cəhətdən daha səmərəli istifadənin təmin edilməsi ilə bağlı mülkiyyətçilərin müraciətləri.